**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**Q Ə R A R I**

**Bakı şəhəri** **№ 257/3** **26 noyabr 2014-cü il**

**Beynəlxalq Audit Standartlarının ingilis dilindən Azərbaycan dilinə edilmiş tərcüməsinin redaktəsi və nəşri barədə**

Beynəlxalq Mühasiblər Federasiyasından (IFAC) Auditorlar Palatasına daxil olmuş Beynəlxalq Audit Standartlarının ingilis dilindən Azərbaycan dilinə edilmiş tərcüməsinə dair 2014-cü il 14 yanvar tarixli razılığın əldə olunması və Auditorlar Palatasının 2014-2016-cı illər üzrə İş Planınının «Beynəlxalq Audit Standartlarının 2013-cü il üzrə versiyasının», «Beynəlxalq Audit Standartlarının 2013-cü il üzrə versiyasının şərhinin» və «Peşəkar Mühasiblərin Etika Məcəlləsinin» barədə 2.1.1, 2.1.2, 2.1.3-cü bəndlərinin icrası ilə əlaqədar Auditorlar Palatasının Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimovun məlumatını müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

**1.** Beynəlxalq Audit Standartlarının ingilis dilindən Azərbaycan dilinə tərcüməsi nəzərə alınsın (Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimovun məlumatı əlavə olunur);

**2.** Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova və Maliyyə təsərrüfat idarəsinə (V.Rəhimov) tapşırılsın ki, Beynəlxalq Audit Standartlarının redaktəsi və nəşrini 2015-ci ilin I rübündə başa çatdırsınlar.

**3.** Beynəlxalq Audit Standartlarının tərcüməsinə Redaksiya Şurasında baxıldıqdan sonra 300 (üç yüz) nüsxə nəşr etdirilsin.

**4.** «Kiçik və orta müəssisələrdə Beynəlxalq Audit Standartlarının (BAS) tətbiqinə dair təlimat»ın, «Beynəlxalq Audit Standartlarının 2014-cü il üzrə versiyasına əlavə, dəyişikliklər»in və «Peşəkar Mühasiblərin Etika Məcəlləsi»nin ingilis dilindən Azərbaycan dilinə son versiyasının tərcüməsi üçün peşəkar tərcümə mərkəzi ilə müqavilə bağlanılması məqsədəmüvafiq hesab edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**